# AMAL VƏ ƏMƏL BİRLİYİNDƏ



**Şəddat CƏFƏROV**

***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

**"Kredo"nun 1100-cü sayına təbrik Əziz dostum Əli Rza Xələfli. Azərbaycan ziyalılarına və o cümlədən, mənə də doğma olan "Kredo" qəzetinin 1000-ci sayı aşmağını çox böyük fərəhlə qarşıladım. Elə həmin günlərdə sənə məktub yazmaq istəyirdim. Təəssüf ki, iş elə gətirdi ki, hətta 1100-cü say da keçdi.**

* * *

Xatirələr insan həyatı üçün işıq mənbəyidir. Kim gələcəyi daha aydın və yaxşı görmək istəyirsə, gərək keçmişə baxsın. Keçmiş isə hər birimizin yaddaşında xatirədən ibarətdir. Elə ona görə də bir çoxları xatirələri həm də tarixin səhifələri kimi qavrayır.

Doğrusunu deyim ki, mənim üçün də xatirələr təkcə öz həyatımla bağlı deyil. Həm də elə xalqımızın, vətənimizin həyatı ilə bağlı olduğundan yaddaşımda qalan xatirələri tarixin səhifələri kimi qavrayıram, mənəvi mühitimdə bu xatirələri düşüncələrimin əsası kimi yaşadıram.

Yaxşı yadımdadır; 1999-cu ilin oktyabr ayının 12-si tarixi ilə "Kredo" qəzetinin işıq üzü görən ilk sayı mənim də əlimə düşmüşdü.

Həqiqətən, həmin günlərdə mən "Kredo" qəzetinin ilk sayını bir qədər etinasızlıqla vərəqlədim. Doğrusu, həmin günlərin qəzet bolluğunda bu qəzetin də ötəri bir hay-küylə tarixə qovuşacağını düşünürdüm.

Səhifələri çevirdim. İlk səhifədə "baş redaktordan" rubrikası ilə "Məsləyə müxalif deyilik" başlıqlı yazı verilmişdi. Yazının məzmunu, baş redaktorun düşüncələrini sərbəst, özünəxas şəkildə ifadə etməsi sözün həqiqi mənasında diqqətimi cəlb etdi: *"Bu "Kredo" qəzetidir. "Kredo" adının seçilməsi isə təsadüfi deyil. Bu sözün əqidə, məslək, amal, inam çalarları qəzetimizin mahiyyəti və məzmununda öz əksini tapacaq. Başa düşürük; indiki qəzet bolluğu bazarında "Kredo" adının görünməsi ilk baxışdan bəlkə də razılıqla qarşılanmadı. Amma yaxşı başa düşürük ki, "Kredo" adı ilə və adına uyğun məzmunu ilə nəşrə başlayan qəzetə Azərbaycan mənəviyyatının ehtiyacı var. Söhbət onda deyil ki, biz kimisə bəyənmirik, yaxud kim tərəfindənsə bəyənilməyi arzu edirik. Əxlaqi dəyərlərimizin ucuzlaşdığı bir dövrdə, min illər boyu yaranmış ənənələrimizin, adətlərimizin az qala, unudulmaq mərhələsinə gəldiyi bir vaxtda... XX əsrin sonunu yaşamaq və XXI əsri görmək qismətində olan nəsil bütün bunlara görə məsuliyyət daşıyır. Budur, ilk nömrə öz oxucusundadır. Əgər bu nömrədə dərc olunan yazılar oxucunun mənəvi dünyasına qismən də olsa yol tapa bilibsə, kimisə gülümsəməyə, kimisə düşünməyə, düşündürməyə nail olmuşuqsa, bunu işimizin başlanğıcı üçün uğur hesab edirik".* Öz-özümə düşünürdüm; bu cür yetkin düşüncələrin sahibi olan redaktor nəyə görə indiyə qədər gecikib. Axı belə müəllif respublika mətbuat mühitinin çoxdan tanınmış siması olmalı idi.

Dəxli yoxdur, qəzet bir fakt kimi ortalıqda idi. Çox məzmunlu, dəyərli yazılar verilmişdi. İlk sayda Azərbaycan mətbuat tarixinin çox görkəmli siması kimi tanınan Cahangir Məmmədlinin qeydləri də diqqətimdən yayınmadı: *"Bu qədər bol KİV sistemində bizim obyektiv, qərəzsiz informasiyaya ehtiyacımız hələ çoxdur. Azərbaycanın min bir problemi mediada öz əksini zəif tapır. İqtidar-müxalifət qütblərinə bölünmüş qəzet və telekanallar əhatəsində oxucu və tamaşaçı eyni partiya liderlərinin obrazlarından, siyasi çəkişmələrdən, dedi-qodulardan başqa bir şey tapa bilmir. Monoton yazılar, monoton forma və üslub, çoxdan vaxtı keçmiş priyomlar oxucu gözünü qabar etməkdədir. Bir neçə ciddi qəzet sarı qəzetlər içərisində itib-batır. Azərbaycan iqtisadiyyatının düşdüyü ağır vəziyyətin obrazlı təsviri bu vəziyyətdən çıxış yollarının ifadəsindən qat-qat üstündür. Bir tərəfin "Dünya gözəldir" - yalanı, digər tərəfin "Heç nə yoxdur" - hikkəsi ilə paralellik təşkil edir. Ölkəni ağır vəziyyətdən çıxarmaq üçün konstruktiv təklif yox dərəcəsindədir. Jurnalistlər faktın konstatasiyasını ən önəmli vəzifə hesab edirlər. Bir çox qəzet kiminsə, hansı qrupunsa siyasi ruporu rolunu oynayır. "Kredo" belə bir vaxtda media aləminə daxil olmaqla riskə gedir. Ancaq risk nəcib işdir. Ən azı ideallar yolunda çarpışmaq nəcib işdir. Ara-sıra arxaya qanrılıb da H.Zərdabini, C.Məmmədquluzadəni, Ö.Faiqi, Ü.Hacıbəylini... xatırlamaq gərəkdir. Onları xatırlamağı bacaran jurnalist heç vaxt xalqa, ideallara xəyanət etməyəcək. "Kredo"ya Mirzə Cəlil cəsarəti, Üzeyir bəy idealları arzulayıram".* İndi bu qeydlərin yazıldığı vaxtdan 23 il keçib. Çox şey dəyişib. Ümidsizlik, Qarabağ probleminin yaratdığı qaranlıq və bir çox məsələlər artıq keçmişdə qalıb. Bəs bu yolu "Kredo" necə keçib? Zənnimcə, "Kredo" ilk sayında qəzetə uğur diləyən görkəmli ictimai-siyasi xadimlərin arzu və istəklərini doğruldub. Oktay Salamzadənin, Firudin Rəsulovun, akademik Cəmil Əliyevin və digərlərinin arzu və istəkləri "Kredo" qəzetinin 1100 sayında necə sözə çevrilib, həqiqət olub, bunu bilmək üçün qəzetin illərlə çeşidlənmiş cildlərini vərəqləmək kifayət edərdi.

Zənnimcə, tarixdən günümüzə qayıtmaq və 1100 sayın doğurduğu təəssüratın nəticələrini sözə gətirmək daha münasib olardı.

"Kredo" qəzetinin baş redaktoru kimi Əli Rza Xələfli və redaksiya kollektivi gənc yazarlara həmişə xüsusi diqqət göstərib. Bunu qəzetin səhifələrində yazıları dərc olunan gənc müəlliflərin haqqında portret qeydləri də sübut edir. Bu qəzetin araya-ərsəyə gətirdiyi bir çox müəlliflər var ki, indi respublikanın tanınmış yazarlarıdır. Bildiyimə görə Elçin Kamal yazıçı-publisist kimi tanınır və indi AzərTAC-da jurnalist kimi uğurlu fəaliyyətini davam etdirir.Nəriman Mahmudun yazıçı-publisist kimi oxucular arasında kifayət qədər nüfuzu var və onun bir neçə kitabını mən özüm nəşr etmişəm. Səbuhi Səfiyarlı qəzetin nəşrə başladığı günlərdən idman jurnalisti kimi tanınırdı və bu gün də idman jurnalistikası sahəsində nüfuzlu söz sahibidir. Vüsal Nuru ilk yazılarını "Kredo" qəzetində çap etdirib. İndi o görkəmli və istedadlı yazıçı kimi ədəbi ictimaiyyət arasında özünü sübut edib. İndi "Azərbaycan" jurnalında məsul katibdir. Onlarca belə istedadlı gənclərin adlarını çəkə bilərəm.

Dediklərimi müəyyən səviyyədə oxucuya çatdırmaq üçün bildirərdim ki, çox yox, bir-iki qəzet var ki, sözün həqiqi mənasında mətbuat məktəbi statusunu qazanıb. Bunlardan biri də "Kredo" qəzetidir. Qəzetin hər bir nömrəsi böyük zəhmət və həyəcanla başa gəlir... Çünki qəzetin baş redaktoru və kollektiv söz üçün necə məsuliyyət daşıdıqlarını yaxşı bilirlər. Onlar artıq qəzet işini əqidə məsələsi kimi qəbul edir və bu hiss ilə yaşayırlar. Hər hansı bir yazının məramını, məqsədini aydınlaşdırır, həmin yazının oxucu mühitində necə əks-səda verəcəyini dəqiqləşdirirlər. Bununla da oxucu ilə qəzet arasında bəri başdan ünsiyyət körpüsü yaradırlar.

Hər bir oxucu istəyir ki, özünün arzularını qəzetin üzündə, müəllif niyyətində hiss etsin. Əgər müəllif niyyəti ouxuc arzusu ilə düz gəlmirsə, onda oxucu qəzetdən imtina edir. Əlbəttə, söhbət, sağlam düşüncədən, sözə sağlam yanaşmadan gedir. Hər bir müəllif öz sözü üçün məsuliyyət daşıyır. Amma unutmayaq ki, həm də hər bir müəllifin yazısına görə redaktor məsuliyyət daşıyır. Redaktor isə hər bir yazını gözdən keçirir. Müəyyən mübahisə doğuran məqamları birinci növbədə müəlliflə müzakirə edir. Və hətta yeri gələndə digər qəzet əməkdaşlarını da həmin mübahisənin mahiyyətinə cəlb edir.

Mən uzun illər "Kredo" qəzeti ilə əməkdaşlıq etdiyimdən Ə.Xələflinin iş üslubunu yaxşı bilirəm. O hər bir yazıya çox həssaslıqla yanaşır. Bəzən həcm artıqlığına görə ixtisar olunma məəsləsi ortalığa çıxanda ən münasib variant axtarır, çalışır ki, yazı lüzumsuz yerə ixtisar olunmasın. Ona görə qəzetin hər nömrəsinin necə əziyyətlə başa gəldiyini məhz Əli Rza Xələflinin timsalında ayrıca qeyd edirəm.

Ədəbi mühitimizdə yazıçı-publisist kimi tanınan Ə.R.Xələfli həm də odlu-alovlu bir şairdir. O, yazılarının, demək olar ki, hamısını bədahətən iktə edir. Ona görə də onun qəzet üçün yazdığı aş məqalələr və digər yazılar şairanə emosiyası ilə diqqəti cəlb edir. Onu yaxşı bilirəm ki, baş redaktor üçün qəzetin hər yeni sayı onun varlığında bir bayram əhval-ruhiyyəsi yaradır. Hətta qəzetin yeni sayının çap olunduğunu mənə və digər dostlarına bayram sevincləri ilə xəbər verir.

Uzun illərdən bəri davamlı müşahidəmə əsasən deyirəm ki, Əli Rza Xələfli təfəkkür baxımından Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən görkəmli mətbuat xadimləri ilə müqayisə oluna bilər. Ən azı, mənim yaxşı tanıdığım, hətta bəziləri ilə birgə çalışdığım görkəmli jurnalistlər, publisistlər - İsrafil Nəzərov, Teymur Əhmədov, Nəsir İmanquliyev, Tofiq Rüstəmov, Nəriman Zeynalov, Firudin Rəsulov kimi jurnalistlərin yaratdığı ən dəyərli ənənələrin davamçısıdır.

Axı mən qeyd etdim ki, Əli Rza Xələfli həm də çox ilhamlı, odlu-alovlu bir şairdir. Son illər onun məsnəvi poemaları, qəsidə poemaları göstərir ki, o, Nizami Gəncəvidən, Xaqanidən gələn ənənələri uğurla davam etdirir. Səməd Vurğun və Zəlimxan Yaqub ilhamının davamını mən Əli Rza Xələfli poeziyasında görürəm.

Onun nəsri də diqqəti çəkəndir. Hər bir publisist yazısı, portret essesi dəyərli nəsr nümunəsidir. Maraqlı hekayə kimi qavranılır. Hətta görkəmli sənətkar İmamverdi Əbilov deyirdi ki, Ə.R.Xələfli dövrümüzün Konstantin Poustovskisidir. Mən onun ləngərli nəsrində Mirzə İbrahimov təmkinini görürəm. Nəsrinin lirikasında İlyas Əfəndiyevin də təsiri duyulur. Ə.R.Xələflinin "Od" romanını oxumaq kifayət edər ki, onun dünya roman ənənələrinə uyğun bir əsər yaratdığını görəsən, biləsən.

Azərbaycan ədəbiyyatının şərhində, başa düşülməsində, dövrün ruhuna çatdırılmasında tənqidçilərin də rolu böyükdür. Azərbaycan ədəbiyyatşünaslığının nəhəng simaları var. Kamal Talıbzadə, Məmməd Arif Dadaşzadə, Əziz Mirəhmədov, Yaşar Qarayev, Məmmədcəfər Cəfərov kimi görkəmli simaların yaradıcılığı olmasaydı, Azərbaycan ədəbiyyatı bir çox oxucuların üzünə bağlı xəzinə kimi qalardı. Onu da deyim ki, Ə.R.Xələfli nəşr etdiyi, redaktorluğu ilə çap olunan "Kredo" qəzetində ardıcıl olaraq ədəbiyyatımızın təhlili mənzərəsini yaradan ədəbi-tənqidi məqalələrlə çıxış edir. Onun professor Aydın Abi, professor Təyyar Salamoğlu, digər görkəmli ədəbiyyatşünaslıq elmimizi zənginləşdirən alimlər haqqında yazdığı kitablar yəqin ki, uzun illər gənc tədqiqatçılar üçün ilkin mənbə olaraq maraqla axtarılacaq, izləniləcək. Onun professor Təyyar Salamoğlu yaradıcılığını fundamental şəkildə ehtiva edən "Tənqidçinin azərbaycançılıq idealı" əsəri akademik Nizami Cəfərovun təbirincə desək, bizim T.Salamoğlu problemimizi mükəmməl şəkildə həll etmişdir.

Ə.R.Xələflinin yaradıcılığı birmənalı şəkildə azərbaycançılıq idealı üzərində köklənib. Onun yazılarında vətən sevgisi, yurd nisgili o qədər güclüdür ki, istər-istəməz oxucunun da mənəviyyatına sirayət edir.

İstər ədəbi publisist, istərsə də bədii yazılarında xalqın ruhu, tarixi keçmişimiz, bu günümüz və sabaha inamımız birmənalı şəkildə qabarıq xətt kimi keçir.

Bunu ona görə inamla deyirəm ki, mən Xələflinin yaradıcılığını ardıcıl olaraq izləyirəm və onun yazılarını xüsusi zövqlə oxuyuram. Burada bir məqama diqqəti çəkmək istərdim. Mən Ə.R.Xələfləni ictimai tədbirlərdə, yığıncaqlarda da yaxından müşahidə etmişəm. O, alovlu bir natiqdir. Çox zəngin dilinə güvənərək hər hansı bir mövzuda əhatəli, dinləyicini özünə cəzb edəcək səviyyədə nitq söyləyə bilir. Elə bu səbəbdən də onun çıxışları həmişə maraqla qarşılanır. Bir sözlə, Xələfli həm də gözəl natiqdir. Onun bütün çıxışları göstərir ki, nə qədər zəngin məlumata malikdir. Güclü, sirayətedici yaddaşı ilə dinləyicilərini həmişə heyrətdə qoyur.

Görünür, "Kredo" qəzetinin oxunaqlı və cəlbedici çıxmasında Əli Rza Xələflinin bu məziyyətlərinin əvəzsiz rolu var. Onsuz da hər bir qəzet redaktorunun simasıdır deyirlər. Bunu "Kredo"-nun timsalında daha da aydın görmək olar.

"Kredo" qəzeti dövrümüzün hansı cəhətdən güzgüsüdür? Bu suala cavab vermək üçün "Kredo"nun tarixinə aid hər hansı bir beş sayını vərəqləmək kifayət edərdi. Bəsirət gözü açıq olan hər hansı bir oxucu o saat bilər ki, "Kredo" ədəbiyyatımızı zənginləşdirən, sözlə oxucu arasında körpü yaradan qəzetdir. Eyni zamanda dilimizin, tariximizin böyük təəssübkeşidir.

Görünür elə bu səbəbdən dövrümüzün görkəmli alimləri ayrı-ayrı vaxtlarda "Kredo" qəzeti haqqında düşüncələrini yazıya alıblar. Əməkdar elm xadimi Qəzənfər Kazımov, əməkdar elm xadimi Nizaməddin Şəmsizadə, professor Asif Rüstəmli, professor Qurban Bayramov, professor Nizami Məmmədov, professor İsmayıl Kazımov, gənc tədqiqatçı Cahid İsmayıloğlu, əməkdar elm xadimi Qəzənfər Paşayev, akademik Nizami Cəfərov və başqaları "Kredo" qəzeti haqqında çox dəyərli rəylər, təhlili yazılar çap etdiriblər. Bu da onu göstərir ki, "Kredo" qəzeti bu gün də Azərbaycan ziyalılarının diqqət mərkəzindədir. Və mən inanıram ki, gələcəkdə də "Kredo" qəzeti həmişə tədqiqat obyekti olacaq.

"Kredo" qəzetinin 1100-cü sayını təbrik edirəm, onun cəfakeş əməkdaşlarına, texniki işçilərinə dözüm və dəyanət arzulayıram. Baş redaktora isə deyirəm ki, sükanı belə saxla, əziz dost.

Kredo əqidə və inam deməkdir. "Kredo" əqidənin və inamın timsalıdır.

*28.06.2022*